# DÖVLƏT MÜŞAVİRİ İLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Kamal Mehdi oğlu Abdullayevin Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri təyin edilməsi xəbərini eşidəndə buna çoxları kimi biz də sevindik. Əvvəla, bir neçə il əvvəl ləğv olunan və cəmiyyətdə birmənalı qarşılanmayan dövlət qurumunun bərpası bu sahədə respublikada aydın və düşünülmüş siyasətin davam etdiriləcəyinə, daha məqsədyönlü xətt yeridiləcəyinə əminlik yaradır. İkincisi, bu vəzifəyə respublikamızın adlı-sanlı ziyalısı, filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, Azərbaycan Yaradıcılıq Fondunun sədri, 14 il Bakı Slavyan Universitetinin rektoru vəzifəsində çalışmış, həmçinin yaratdığı bədii əsərlərinin qayəsini vətən, yurd sevgisi və insana məhəbbət təşkil edən yazıçının təyin olunması Azərbaycan Prezidentinin millətlərarası münasibətlərə önəm verdiyini deməyə əsas verir.

Yeni dövlət müşavirinin respublikamızın azsaylı xalqlarının nümayəndələri ilə ilk görüşü aprelin 1-də Bakı Slavyan Universitetinin konfrans zalında keçdi. Görüş zamanı K.Abdullayev hamı ilə səmimi görüşərək, cənab prezidentin böyük etimad göstərərək onu bu vəzifəyə təyin etdiyini, bu etimadı doğrultmaq üçün var-qüvvə ilə çalışmağa hazır olduğunu bildirdi.

Sonra çıxışlar oldu. Azəri-Talış İctimai Birliyinin sədri Mehdibəy Səfərov, "Samur" Ləzgi Milli Mərkəzi İdarə Heyətinin sədri Şair Həsənov, Azərbaycan Rus İcmasının sədri Mixail Zabelin, "Tuqantel" Tatar Mədəniyyət Mərkəzinin sədri Gülcan Myasoutova, Dağ Yəhudiləri Bakı Dini İcmasının sədri Milix Yevdayev, "Ponayi" Kürd Mədəniyyət Mərkəzinin sədri Fəxrəddin Paşayev, Talış Mədəniyyət Mərkəzinin sədri Rafiq Cəlilov, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Avar Azərbaycan İctimai Birliyinin sədri Məhəmməd Nooyev, Axıska türkləri "Vətən" İctimai Birliyinin sədri İbrahim Məmmədov, Rus Mədəniyyət Mərkəzinin sədri Qalina Manafova və başqaları yeni müşavirə fəaliyyətində uğurlar diləyərək, milli icmaların tez-tez təsadüf etdiyi problemlər haqqında qısaca məlumat verdilər. Bunlara ayrı-ayrı ictimai təşkilatların qeydiyyatı, etnik qəzetlərə dövlət yardımının göstərilməsi və sair məsələlər daxil idi.

"Samur" qəzetinin redaktoru Sədaqət Kərimovaya da söz verildi. O, dedi: "Mən bütün tədbir iştirakçılarının ürəyincə olacaq bir arzumu dilə gətirmək istəyirəm. Dünyanın bir çox yerlərində "Xalqlar dostluğu" evləri var. Məsələn, Tatarıstanın paytaxtı Kazanda, Qazaxıstanın paytaxtı Almatıda, Türkiyədə, Avropanın ayrı-ayrı ölkələrində. Belə bir evin Bakıda da yaradılması məqsədəuyğun olardı. Bu, həm ictimai birliklərin ofis problemini həll edər, həm də bir sıra beynəlxalq forumlara ev sahibliyi edən Azərbaycanın imicinin daha da yüksəlməsinə səbəb olardı. Biz tolerant ölkə kimi dünyada tanınırıq. Belə bir ev isə bunun rəsmi təsdiqi olardı".

"Çox gözəl təklifdir. Əslində bu fikir məni də düşündürüb. Mən mütləq cənab Prezidentə bu barədə məlumat verəcəyəm", - deyə məsələyə münasibətini bildirən müşavirin sözləri hamının ürəyindən oldu.

Sonra S.Kərimova sözünə davam etdi: "1992-ci ilin Prezident fərmanından sonra nəşrə başlamış azsaylı xalqların qəzetlərinin çoxu iqtisadi çətinliklərə davam gətirə bilməyib bağlandı. "Samur" isə 22 ildir ayda bir dəfə də olsa çıxır və Azərbaycan həqiqətlərini dünyaya, o cümlədən Avropa Şurasına çatdırır. Bu isə belə bir fikir formalaşdırır ki, respublikada ləzgi dilində qəzet çıxırsa, orada demokratiya, tolerantlıq var. Ona görə də belə qəzetlərə yardım göstərilməsində dövlət maraqlı olmalıdır".

Sonda dövlət müşaviri bir daha vurğuladı ki, belə görüşlər tez-tez keçiriləcək. Onların nəticəsi olaraq respublikada bir çox önəmli işlər çörüləcək, konkret layihələr həyata keçiriləcək. "Mən sizinlə bərabər çalışacağam, sizin köməyinizlə biz istədiklərimizə nail olacağıq. Ona görə də sizdən konkret təkliflər gözləyirəm". - Bu sözlərlə o, səmimi şəraitdə keçən görüşü yekunlaşdırdı.

**"SAMUR"**